# KÜRMÜKÇAY HÖVZƏSİNİN TORPAQ-LANDŞAFT ZONALARININ TƏHLİLİ VƏ XƏRİTƏSİNİN TƏRTİBİ

**Qasımov Q.İ.**

*AMEA Torpaqşünaslıq və Aqrokimya İnstututu*
*Qeni.qasımov@mail.ru*

Uzunluğu 55 km Kürmükçay başlanğıcını Böyük Qafqazın cənub istiqamətindən - Dağıstan sərhəddindən alır. Mənbəyini Künaxaysu və Hamamçayın birləşməsindən götürür. Çay axımının çox hissəsini yeraltı sular (54%), qar (38%) və qismən də yağış (18%) suları təşkil edir. Kürmükçay Qax rayonu ərazisində yerləşir. Bu çayın hövzəsinə aşağıdakı landşaft zonaları daxildir (şəkil 1): subalp və alp çəmənliklərinin torpaqları; mezoil meşələrin torpaqları; kserofil meçələrin, kolluqların və dağ bozqırların torpaqları; çaybasarların və düzən torpaqları; başqa törəmələr

Subalp və alp çəmənlikləri yay otlağı və biçənək kimi istifadə edildiyindən qeyri-müntəzəm təsərrüfat təsirlərinə məruz qalır.

KÜRMÜKÇAY HÖVZƏSİNİN TƏBİİ ZONA XƏRİTƏSİ




**Şəkil 1.Kürmükçay hövzəsinin landşaft xəritəsi**

Subalp çəmənliklərinin əksəriyyəti həm biçənək, həm də otlaq kimi, alp çəmənləri isə yalnız otlaq kimi istifadə edilir. Bu da zonada eroziya proseslərinə, fiziki aşınma nəticəsində əmələ gələn kobud qırıntıların ətəklərə toplanmasına səbəb olur. Bu zona üçün taxıllı ot bitkiləri səciyyəvidir.

Mezofil meşə torpaqları əsasən üst rütubətli qurşaqlarda yayılmışdır. Bu baxımdan torpaq meyilliliyi, baharlılığı, yamacların yüksəkliyi, aşınma qatının qalınlığı və s. məsələlər torpaqəmələgəlmə prosesində mühüm

əhəmiyyət kəsb edir. Ana süxur əsasən elüvial-delüvial aşınma məhsulları hesabına formlaşır. Torpaq ilkin minerallarla zəngindir.

Kserofil meşələrin, quru subtropik bozqırların və yarımsəhraların torpaqları ölkəmizdə aridliyi ilə seçilir. Bu zona torpaqları yüksək gilliliyə malikdir. Torpaqəmələgəlmə prosesində dəmir və aliminium oksidlərin toplanması müşahidə olunur.

Subasarların (çay vadilərinin) torpaqları Böyük Qafqazın alçaq terraslarında inkişaf etmiş tuqay meşəliklərində yayılmışdır. Bu torpaqların əmələ gəlməsində çayların subasar rejimi və yeni allüvial çöküntülər vacib rol oynayır. Daşqınlar dövründə torpaqəmələgəlmə ritmi bir neçə dəfə pozulur. Daşqınlar dövründə səth suların səviyyəsi yüksəlir. Normal şəraitdə torpaqda 1-2 sm meşə döşənəyi formlaşır. Cır alma, əzgil, armud kimi bitkilərə rast gəlinir.